Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İradə Hacıyevanın 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlının 12 oktyabr 2013-cu il tarixli 16 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 12 oktyabr 2013-cü il

Mən, ekspert qrupunun üzvü İradə Hacıyeva 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlının 12 oktyabr 2013-cu il tarixli 16 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

2013-cü il oktyabrın 9-da keçirlmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlı 2013-cü il oktyabrın 12-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, səsvermə günü bir sıra seçki dairə və məntəqələrində müxtəlif qanun pozuntularının olmasını bildirib, qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Eyin zamanda şikayət ərizəsinə müşahidə aparan şəxslər tərəfindən tərtib edilməsi, həmçinin bu və ya digər pozuntunun baş verməsinin təsdiq edilməsi iddia edilən aktların kserosurətləri əlavə edilərək, əsillərinin araşdırma prosesində təqdim ediləcəyini qeyd edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1-ci maddəsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli Təlimatının tələblərinə uyğun olduğundan icraata qəbul edilmiş və Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü kimi tərəfimdən araşdırılmış və müvafiq rəy verilmişdir.

Araşdırma nəticəsində müraciətə əlavə edilmiş və pozuntuların rəsmləşdirildiyi iddia edilən aktlar kserosurət olduğundan müraciət əsassız hesab edilərək təmin olunmamalıdır.

Belə ki, müraciətin araşdırılması prosesində ərizəçi G.Aslanlı araşdırmaya dəvət olunmuş, müraciətə əlavə olunmuş aktların əsli deyil, təsdiq edilməmiş kserosurətləri MSK-ya verildiyindən, ondan həmin aktların əsillərinin, habelə mövcud olan digər sübutların təqdim edilməsi xahiş edilmişdir. Eyni zamanda ərizəçiyə o da izah edilmişdir ki, onun tərəfindən təqdim edilmiş ümumi xarakterli şikayət ərizəsində göstərilmiş və baş verməsi iddia edilən konkret hallar yalnız aktlarda əks olunduğundan və həmin aklar olmadan, ümumiyyətlə, pozuntunun nədən ibarət olmasını belə təqdim olunan müraciət müəyyən etməyə imkan vermədiyindən həmin aktların araşdımaya təqdim edilməsi çox vacibdir. Əks təqdirdə araşdırmanın, ümumiyyətlə, qeyri-mümkünlüyü onun diqqətinə çatdırılmışdır.

Ərizəçi isə öz növbəsində maraqlarını təmsil etdiyi qeydə alınmış prezidentliyə namizəd C.Həsənlinin buna dair mövqeyini dəqiqləşdirdikdən sonra həmin sübutların yalnız məhkəmə araşdırması zamanı təqdim edilməsinin mümkünlüyünü qəti şəkildə bildirərək hər hansı bir akt və ya digər sübut təqdim etməkdən imtina etmişdir. Bunu həm adından çıxış etdiyi qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin, həm də onun özünün dəyişməz mövqeyi kimi təqdim etmişdir. Qeyd edilən hallar araşdırma prosesində Azərbaycan Respublikası Seçki Məcəlləsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq rəsmləşdirilmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlının 12 oktyabr 2013-cü il tarixli 16 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İradə Hacıyeva